# Akademik Palma Ordeni təqdim edilib

**Noyabrın 25-də Landmark hotelində beynəlxalq fransız dili müəllimləri günündə Fransanın "Ordre des Palmes Academique" (Akademik Palma) Ordeninin "Officier" (Zabit) və "Cəngavər" dərəcəsinin təltif edilmə mərasimi baş tutub.**






Fransanın Azərbaycandakı səfiri Zakari Gross mərasimi açaraq bildirib ki, ölkəmizdə fransız dilinin inkişafı və yayılması, iki ölkənin mədəni əlaqələrinin inkişafında göstərdikləri xidmətə görə Fransa Respublikasının Milli Təhsil, Gənclər və İdman Nazirliyinin 8 yanvar 2020-ci il tarixli fərmanı ilə Azərbaycan-Fransız Universitetinin icraçı direktoru, Strasburq Universitetinin doktoru, dosent Vazeh Əskərov "Akademik Palma" Ordeninin "Zabit" dərəcəsi və Bakı Fransız Liseyinin təhsil müşaviri Gülşən Nağızadə, fransız dili müəllimləri Xədicə Abdullayeva, Mahirə Şükürova və Rafiq Mikayılovun "Akademik Palma" Ordeninin "Cəngavər" dərəcəsi ilə təltif ediliblər.

Görüşdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor Mustafa Babanlı, Azərbaycan Yazıçılar Birliyinin katibi, Xalq yazıçısı Çingiz Abdullayev, İqtisadiyyat nazirinin müşaviri Məsim Məmmədov, Təhsil Nazirliyinin məsul işçisi, yazıçı Rövşən Ağayev, ictimai xadim Hacı Nuran Hüseynov, fransız dili müəllimləri və digər yerli və xarici qonaqlar iştirak ediblər.

Tədbirdə Azərbaycanda təhsilin inkişafı istiqamətində qarşıya qoyulmuş hədəflərə çatmağın əsas vasitələrindən birinin də beynəlxalq təcrübənin öyrənilməsi və xarici tərəfdaşlarla əməkdaşlığın dərinləşdirilməsi olduğu bildirilib. Bu baxımdan, Azərbaycanla xarici ölkələr arasında təhsil sahəsində sıx əməkdaşlığın və birgə fəaliyyətin həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Qeyd edək ki, "Akademik Palma" Ordeni 1808-ci il martın 19-da Napoleon Bonapart tərəfindən Paris Universitetinin və bəzi liseylərin akademikləri və professorlarını təltif etmək məqsədi ilə təsis edilib. İlk dəfə bu yüksək mükafatla Paris Universitetinin akademik və professorları təltif olunublar. "Akademik Palma" Ordeni Fransada elm və mədəniyyət sahəsində təqdim olunan ən yüksək və imperiya dövründən qalan yeganə orden sayılır. 4 oktyabr 1955-ci ildə Respublika Prezidenti olmuş Rene Kotinin imzaladığı fərmanla "Akademik Palma" Ordeninin cəngavər, zabit və komandir rütbələri təsis edilib.

Azərbaycan müəllimi.- 2021.- 3 dekabr.- S.6.